**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ƏLİ İLDIRIMOĞLU YARADICILIĞINDA MİLLİ-MƏNƏVİ ÖZÜNÜDƏRK PROBLEMİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Loğman Rəşid oğlu Əliyev**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsində hazırlanaraq yerinə yetirilmişdir

Elmi rəhbər: filologiya elmləri doktoru
**Rəhim Nadir oğlu Əliyev**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
**Elnarə Seydulla qızı Akimova**

filologiya elmləri doktoru, dosent
**Abuzər Musa oğlu Bağırov**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Ələmdar Qəmbər oğlu Bayramov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 - Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: akademik, filologiya elmləri doktoru, professor
________________ **İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
________________ **İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
________________ **Əlizadə Bayram oğlu Əsgərli**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, nasir, publisist Ə.İldırımoğlunun bədii yaradıcılığının milli-mənəvi özünüdərk problemi kontekstində tədqiqi çağdaş Azərbaycan ədəbiyyatşünaslığı və filoloji fikrinin aktual mövzularından biri kimi qəbul edilməlidir. Azərbaycan bədii nəsr tarixində öz xüsusi yeri və rolu olan Ə.İldırımoğlunun yaradıcılığı XX əsrin sosial-siyasi, mənəvi-ideoloji reallıqları fonunda özünəməxsus keyfiyyətləri ilə fərqlənən ədəbi-bədii hadisədir. Yaşadığı zamanın siyasi, ictimai, mədəni, ideoloji gerçəkliklərinə dərindən bələd olan yazıçı daim milli həqiqətlərin ifadəsi üçün yeni bədii üsul və forma axtarışlarında olmuş, milli özünüdərk ideyalarını dövrün sərt siyasi-ideoloji çərçivələri daxilində yaşadaraq inkişaf etdirməyə çalışmış, bu ideyaların müxtəlif ədəbi-bədii priyomlarıdan istifadə yolu ilə bədii təcəssümünə nail olmuşdur. Bir şəxsiyyət kimi mənəvi qaynaqları etibarilə Azərbaycan insanının tarixi-mədəni ehtiyatlarına bütün varlığı ilə bağlı olan Ə.İldırımoğlunun yaradıcılığında millilik hər cəhətdən öz təbii stixiyasında, süni bəzək-düzəksiz, milli insanın mənəvi potensiyasının əsas keyfiyyətlərini inikas edərək təcəssüm olunmuşdur. O öz yaradıcılığı ilə bütün hallarda milli-mənəvi dəyərlərə bağlı olmuş, yaratdığı obrazlar, irəli sürdüyü ideyalar öz mənbəyini, kökünü xalqın mənəviyyat dünyasından almışdır. Milli-mənəvi özünüdərk ideyalarının bu və ya digər şəkildə təzahür edərək onun əsərlərinin, ədəbi kimliyinin əsas göstəricisinə çevrilməsi sənətkarın bədii yaradıcılığının elmi aktuallığının əsas platformasını təşkil edir.

Milli-mənəvi özünüdərk probleminin Ə.İldırımoğlunun yaradıcılığı əsasında tədqiqi təkcə bu sənətkarın bədii irsinə deyil, ümumən müasir Azərbaycan ədəbiyyatını əhatə edən bəzi ədəbi-fəlsəfi və estetik təmayüllərə yeni baxış, nöqteyi-nəzər deməkdir. Müasir Azərbaycan zamanının sürətlə dəyişən ideoloji epoxalar içərisindən keçməsi, xüsusilə XX əsr Azərbaycan ədəbiyyatında millilik, bəşərilik, özünüdərk kimi daim aktual mövzuları dinamik hadisəyə çevirmişdir. “Formaca – milli , məzmunca – sosialist”

ehkamına əsaslanan sovet ədəbiyyatının üzvi tərkib hissəsi olan Şimali Azərbaycan ədəbiyyatının da bu yaradıcılıq metoduna əsaslanması bütün dünyada və o cümlədən Azərbaycanda milli dil və dəyərlərin daşıyıcısı olan yazıçıları böyük çətinliklər, bəzən də onların həyatları bahasına başa gələn problemlər qarşısında qoymuşdur. Lakin heç bir repressiya milli əqirdəyə malik olan yazıçıları öz dönməz mövqeyindən uzaqlaşdıra bilməmişdir. Çünki dilə, dinə, adət-ənənələrə, mənəvi-mədəni davranış düsturlarına, mental dəyərlərə bağlılıq genlə və qanla müəyyənləşən stixial hadisədir. Bu cəhətdən milli-mənəvi ənənələrə bağlılıq Ə.İldırımoğlunun şəxsiyyəti, yaradıcılığı və mənəvi dünyası üçün xarakterik hadisə idi. Dövrün sərt siyasi reallıqları içərisində el-obaya, vətənə, torpağa və milli-mənəvi dəyərlərə bağlılığını ən müxtəlif bədii konsept və formullardan istifadə yolu ilə ifadə edən Ə.İldırımoğlu bu gün bizim ədəbiyyatımızda milli-mənəvi özünüdərk leytmotivinin əsas yaradıcılarından sayılmaqdadır.

Ə.İldırımoğlunun yaradıcılığı müstəqillik dövrü ədəbiyyatı kontekstində xüsusi yerə və rola malikdir. Bu yerin və rolun öyrənilməsi, Ə.İldırımoğlu yardıcılığında milli-mənəvi özünüdərk ideyalarının poetik təzahür səviyyələrinin tədqiqi müasir Azərbaycan ədəbiyyatında yad meyllərin, antimilli, kosmolot ideyaların gücləndiyi hazırki şəraitdə milli-mənəvi dəyərlərimizə müxtəlif “izmlər” adları altında təşkil olunan ədəbi-ideoloji hücumların qarşısının alınması baxımından da böyük aktuallıq kəsb edir. Milli kimlik yalnız onu minillər boyunca ayaqda saxlayan, ölməyə qoymayan özünüdərk ideyaları ilə diri qala bilər. Ədəbiyyatımız bu dəyərləri özündə parlaq şəkildə təcəssüm etdirən imzalar və ədəbi mətnlərlə zəngindir. Yaradıcılığında milli-mənəvi özünüdərk ideyalarının qırmızı xətlə keçdiyi Ə.İldırımoğlunun əsərləri bu kontekstdə böyük əhəmiyyətə malik olmaqla xüsusi tədqiq aktuallığı kəsb edir.

İndiyədək ədibin həyat və yaradıcılıq yolu ilə əlaqədar geniş səpkili tədqiqat işləri aparılmış, elmi-nəzəri fikirlər söylənmiş, məqalə və resenziyalar yazılmışdır. Ayri-ayrı dövrlərdə Mirzə İbrahimov, Qulu Xəlilov, Cəmil Əlibəyov, Nizami Cəfərov, Rəfael Hüseynov, Arif Əmrahoğlu, Nizaməddin Şəmsizadə, Qəzənfər

Kazımov, Qurban Bayramov, Əhəd Muxtar, Gəray Fəzli, Əbulfəz Naxçıvanlı, Ramiz Rövşən, Əfqan, Vaqif Yusifli, Səadət İldırımzadə, Bəsti Əlibəyli, Ağacəfər Həsənli, Ziyəddin Sultanov, Nizaməddin Mustafa və başqaları Əli İldırimoğlunun zəngin, çoxcəhətli əsərləri ilə bağlı düşüncələrini elmi kitab və məqalələr vasitəsilə ifadə etmişlər[1].

Bu tədqiqatlar içərisində Rəfael Hüseynovun "Savabın cavabı", Qurban Bayramovun "Əli İldırımoğlunun yaradıcılıq yolu: milli-mənəvi dəyərlərin bədii səlnaməsi" və Bəsti Əlibəylinin "Durna çırağı" kitab və monoqrafiyaları geniş şərhə malik dərin məzmunlu və əhatəlidir.

Bu kitablarda, məqalə və resenziyalarda onun haqqında dərin bilgi verilmiş, əsərləri müxtəlif aspektlərdən təhlil obyektinə cəlb edilmiş, sənətkarlıq xüsusiyyətləri müasir təfəkkür işığında araşdırılmışdır. Ancaq, təəssüf ki, onun əsərləri ədəbi-bədii, nəzəri-publisistik və fəlsəfi görüşləri indiyədək sistemli şəkildə milli-mənəvi özünüdərk istiqamətində tədqiqata cəlb olunmamışdır. Müdafiəyə təqdim olunan dissertasiya işi məhz bu zərurətdən yaranmışdır.

Ümumiyyətlə, Azərbaycan ədəbiyyatında, müasir elmi-nəzəri və ədəbi görüşlərdə milli-mənəvi özünüdərk ideyasının müxtəlif

---

[1] İbrahimov, M. Seçilmiş əsərləri / M.İbrahimov. - IX c., - Bakı: Yazıçı, -1982, - 664 s; Cəfərov, N. Azərbaycanşünaslığa giriş / N.Cəfərov. – Bakı: AzAtaM, - 2002, - 602 s; Hüseynov, R. Savabın cavabı / R.Hüseynov. – Bakı: AMEA Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi, - 2004, - 77 s; Şəmsizadə, N. Azərbaycan ədəbiyyatşünaslığı / N.Şəmsizadə. – Bakı: Ozan, - 1977, - 292 s; Kazımov Q. Məğrurluq abidəsi // 525-ci qəzet. – 2021. - 17 noyabr, s. 16-17; Bayramov, Q. Əli İldırımoğlunun yaradıcılıq yolu: milli-mənəvi dəyərlərin bədii salnaməsi / Q.Bayramov. – Bakı: Nurlan, - 2009, - 560 s; Bayramov, Q. Mənəvi həyatda millilik və beynəlmiləlçilik / Q.Bayramov. – Bakı: Gənclik, - 1980, - 52 s; Xəliloğlu T. Yaxın keçmişimizin səhifələri // "Hakimiyyət" qəzeti. – 1996. – 10 may, s.6; Rövşən R. Yaşamaq və yaşatmaq // 525-ci qəzet. – 2015. - 14 noyabr, s. 20; Yusifli V. Əli İldırımoğlu yaradıcılığında milli-mənəvi özünüdərk // 525-ci qəzet. – 2017. - 9 dekabr, s.14-15; Əlibəyli, B. Durna çırağı / B.Əlibəyli. – Bakı: Çıraq, - 2006, - 200 s; Nemət K. Közərən sətirlər // Ədəbiyyat qəzeti. – 2000. – 26 may, s.4; Rəşidzadə L. Yazıçının həqiqət və harmoniya axtarışları. // 525-ci qəzet.- 2016.- 31 yanvar, s. 26-27; İldırımoğlu, Ə. Sətirlərin sədası / Ə.İldırımoğlu. – Bakı: Aspoliqraf, - 2011, - 479 s.

tərəfləri və istiqamətlərinin araşdırılmasında müəyyən uğurlu cəhdlər edilməsinə baxmayaraq, hələ də onun bütöv ədəbi-bədii, yetkin sosial-fəlsəfi konsepsiyası yaradılmamışdır. Güman edirik ki, apardığımız tədqiqat işi yazıçının yaradıcılığı kontekstində bu elmi boşluğun doldurulması baxımından müəyyən dərəcədə fayda verə bilər.

Milli-mənəvi özünüdərkin problematikasına dair çoxsaylı ədəbiyyatın təhlili, onlarda bəzi mühüm elmi müddəaların, fikir və təkliflərin irəli sürülməsi, nəzəri postulatların, estetik konsepsiyaların qoyulması bir mənbə kimi həmin qaynaqlardan istifadəni və bəhrələnməni zəruri edir. Müxtəlif məxəzlərin öyrənilməsinə, tədqiqinə, təhlilinə və bu nəzəri, fəlsəfi-estetik fikirləri qarşıya qoyulan məqsədin işıqlandırılmasına yönəltməyə də diqqət verilmişdir.

Müstəqilliyimizin ilk illərindən milli dəyərlərin təbliği, millətin bir daha özünün özünə tanıtdırılması baxımından bir çox tədqiqat işləri aparılır. İnsanın yüksəlişinin, cəmiyyətin tərəqqisinin ən mühüm amilini təşkil edən milli-mənəvi özünüdərk probleminin ədəbi metodlarla öyrənilməsi və həyata keçirilməsi bu baxımdan həmişə öz populyarlığı ilə seçilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Əli İldırımoğlunun, əsasən, ədəbi-bədii əsərlərini, o cümlədən bədii-publisistik yaradıcılığını əhatə edir.

Tədqiqatın predmeti isə Ə.İldırımoğlunun bədii yaradıcılığı əsasında milli-mənəvi özünüdərk probleminin dünya və Azərbaycan ədəbiyyatları kontekstində təhlili, yazıçının nəsrində milli-mənəvi özünüdərk konseptinin sosial dəyər, poetik struktur, o cümlədən bədii mətnin ideyası, məzmun qatları səviyyələrində öyrənilməsi, sənətkarın yaradıcılığında milli-mənəvi özünüdərk ideyalarının poetik üslubu, ədəbi-bədii təsir kontekstlərinin araşdırılması, nasirin milli-mənəvi özünüdərk ideya və obrazlarının Azərbaycan ədəbi-bədii fikir məkanınında yerinin, rolunun müəyyənləşdirilməsi kimi məsələlər təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada əsas məqsəd Əli İldırımoğlunun yaradıcılığında milli-mənəvi özünüdərk probleminin çağdaş Azərbaycan filoloji fikrinin elmi-nəzəri bazası

əsasında dəyərləndirilməsidir. Bu məqsəd aşağıdakı üç əsas elmi vəzifənin həyata keçrilməsini nəzərdə tutur:

1. İlk növbədə, milli-mənəvi özünüdərk probleminin ədəbi-fəlsəfi kateqoriya, bədii-poetik düşüncə konsepti kimi tədqiqi, elmi qənaət və fikirlərin dünya və Azərbaycan ədəbiyyatları kontekstində elmi süzgəcdən keçirilməsi, bu əsasda Əli İldırımoğlunun yaradıcılığında milli-mənəvi özünüdərk probleminin bədii reallaşmasının ümumnəzəri mənzərəsinin yaradılması.

2. Əli İldırımoğlu nəsrində milli-mənəvi özünüdərk konseptinin bədii ideya və poetik struktur səviyyələrinin tədqiqi. Bu istiqamət milli-mənəvi özünüdərk konsepsiyasının yazıçı tərəfindən bədii mətnin ideya, məzmun, obraz, sosial-mənəvi problemlər və s. kimi səviyyələrdə necə, hansı formada reallaşdırılmasının tədqiqini nəzərdə turur.

3. Ə.İldırımoğlu yaradıcılığında milli-mənəvi özünüdərk ideyasının poetik üslubi və ədəbi-bədii təsir kontekstlərinin tədqiqi. Buraya milli-mənəvi özünüdərk ideyalarının bədii dil və üslub kontekstində öyrənilməsi, həmçinin yazıçının milli-mənəvi özünüdərk ideya və obrazlarının Azərbaycan ədəbi-bədii fikir məkanında yeri və rolunun araşdırılması kimi məsələlər daxildir.

**Tədqiqatın mənbələri.** Tədqiqatın əsas mənbəyi tanınmış alimlərin, nəzəriyyəçilərin fikirlərinə, məşhur nasirlərin əsərlərinə istinaddır. Ümummilli lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, ölkəmizin birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın milli-mənəvi dəyərlər, milli-mənəvi özünüdərk haqqında söylədikləri fikirlərə də bu tədqiqatda ədəbi-estetik və ideoloji mənbə kimi müraciət olunub. Əli İldırımoğlunun bütün əsərləri, o cümlədən on iki cildliyi, həmçinin ölkəmizdə, xaricdə nəşr olunmuş kitab və jurnallarda dərc edilən əsərləri, müsahibələri, nəzəri mülahizələri, internet saytlarındakı məlumat və informasiyalar, onun haqqında qələmə alınan məqalələr, kitablar, xatirələr də bu dissertasiya üçün mənbə rolunu oynayıb.

**İşin nəzəri-metodoloji əsasları.** Əli İldırımoğlunun bədii yaradıcılığının milli-mənəvi özünüdərk problemi kontekstində tədqiqinə həsr olunmuş bu dissertasiyada, əsasən, tarixi-müqayisəli,

müqayisəli-tipoloji, müqayisəli-təsviri təhlil metodları tətbiq olunmuşdur.

Ə.İldırımoğlu bir yazıçı kimi XX və XXI əsr epoxalarının içindən keçmiş ədəbi şəxsiyyətdir. Cəmiyyətdəki ictimai mövqeyi, jurnalistlik fəaliyyəti ona xüsusilə XX əsr sovet reallığının bütün mahiyyətini dərk etməyə imkan vermişdir. Müstəqillik epoxasına gələn dövrü və həmin epoxanının özünü canlı şəkildə yaşamış ədibin yaradıcılığında bütün bu tarixi dövrlər öz poetik obrazı ilə iştirak edir. Ə.İldırımoğlunun əsərlərində tarixi gerçəklik, onun epoxal mahiyyəti bədii reallığa sublimasiya olunur, yəni mahiyyəti saxlamaqla yeni forma kəsb edir. Bu cəhət özünü milli-mənəvi özünüdərk ideyalarının bədii təcəssümündə xüsusən büruzə verir. XX və XXI əsr epoxalarının milli-mənəvi dəyərlərə fərqli ideoloji-fəlsəfi, ədəbi-mədəni mənalar verməsi həmin mənaların bədii cəhətdən təcəssüm olunduğu Ə.İldırımoğlu yaradıcılığına ilk növbədə tarixi-müqayisəli kontekstdə yanaşmanı zərurətə çevirir.

Ə.İldrımoğlunun bədii əsərlərini cəsarətlə XX və XXI əsrin milli-mənəvi ovqatının bədii salnaməsi də adlandırmaq olar. Bu, hər şeydən əvvəl yazıçının obrazlaşdırma üsulunda özünü göstərir. Bu cəhətdən Ə.İldırımoğlu obrazlarının əsas xarakterik keyfiyyəti tipikləşdirmədir. Yaşadığı zamanın bütün milli-mənəvi reallıqları onun obrazlarında yaddaşa çevrilən tipoloji xüsusiyyətləri ilə öz təcəssümünü tapmışdır. Bu cəhət də öz növbəsində yazıçının yatartdığlı obrazları müqayisəli-tipoloji təhlil müstəvisinə gətirməyi tələb edir[1].

Ə.İldırımoğlu bir nasir kimi oturuşmuş təhkiyə üsubuna malikdir. Həmin təhkiyənin əsasında gerçəkliyin müqayisəli qavrayışına əsaslanan bədii təsviri durur. Yazıçının real həyat gerçəkliyini bədii gerçəkliyə sublimasiyası dərin poetik tutuma və

---

[1] İldırımoğlu, Ə. Ağ günlərin qara daşı / Ə.İldırımoğlu. – Bakı: Elm və təhsil, - 2015, - 538 s; İldırımoğlu, Ə. Aqibət / Ə.İldırımoğlu. – Bakı: Nurlan, - 2007, - 368 s; İldırımoğlu, Ə. Daş yağan gün / Ə.İldırımoğlu. – Bakı: Elm və təhsil, - 2010, - 240 s; İldırımoğlu, Ə. Əmrahsız qalan dağlar / Ə.İldırımoğlu. – Bakı: Nurlan, - 2007, - 303 s;, İldırımoğlu, Ə. Közərən sətirlər / Ə.İldırımoğlu. – Bakı: Nurlan, - 2007, - 376 s; İldırımoğlu, Ə. Qarlı gecələr / Ə.İldırımoğlu. – Bakı: Nurlan, - 2007, - 376 s; İldırımoğlu, Ə. Mənim rəncbər atam / Ə.İldırımoğlu. – Bakı: Nurlan, - 2007, - 416 s.

zəngin bədii semantikaya malik təsvir metoduna əsaslanır. Bu da öz növbəsində bizdən Ə.İldırımoğlunun yaratdığı bədii fakturanı müqayisəli-təsviri metodla öyrənməyi də tələb edir.

Dissertasiya sanballı nəzəri-metoloji bazaya əsaslanır. Bizim tədqiqatımızda bu bazanın əsası kimi Azərbaycan filoloji fikrinin bədii nəsrin tədqiqi sahəsində yaratdığı zəngin nəzəri-metodoloji təcrübə durur. Tədqiqatda dünya elmi-nəzəri fikri ilə müqayisədə Azərbaycan filoloji fikrinin nəzəri-metodoloji postulatlarına üstünlük verilməsi dissertasiyanın problematikası ilə şərtlənir. Ə.İldırımoğlu yaradıcılığında milli-mənəvi özünüdərk probleminin tədqiqi ilk növbədə Azərbaycan filoloji fikrinin nəzəri-metiodloji təcrübəsinə əsaslanmağı tələb edir. Bu, bir aksiomdur ki, Azərbaycan milli-mənəvi reallıqları ilk növbədə Azərbaycan ədəbiyyatında inikas olunmuşdur. Bununla yanaşı, həmin bədii reallıqların müxtəlif aspektlərdən filoloji təhlilinin əsas etibarilə Azərbaycan ədəbiyyatşünaslığında aparılması da inkarolunmaz faktdır. Bu cəhətdən dissertasiyanın nəzəri-metodoloji bazasını dünya elmi-nəzəri fikri ilə müqayisədə daha çox Azərbaycan filoloji fikrinin iki əsr ərzində yaratdığı elmi-nəzəri resursların təşkil etməsi dissertasiyanın problematikası baxımından tamamilə məntiqi və məqsəduyğundur[1].

**Dissertasiyanın əsas elmi yenilikləri.** Əli İldırımoğlunun yaradıcılığında milli-mənəvi özünüdərk probleminin tədqiqinə həsr olunmuş bu dissertasiyanın bütün yenilikləri tədqiqatın ilk növbədə mövzusu və ümumən tematik mahiyyəti ilə müəyyənləşir. Belə ki, Ə.İldırımoğlunun yaradıcılığı haqqında sanballı tədiqiqatlar aparılmasına və bu araşdırmalarda milli-mənəvi özünüdərk məsələlərinə də toxunulmasına baxmayaraq, mövcud dissertasiya sənətkarın yaradıcılığında milli-mənəvi özünüdərk ideyalarının elmi

---

[1] Həbibbəyli, İ. Böyük ədəbiyyat nəhəngi / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, - 2012, - 92 s; Bayramov, Q. Əli İldırımoğlunun yaradıcılıq yolu: milli-mənəvi dəyərlərin bədii salnaməsi / Q.Bayramov. – Bakı: Nurlan, - 2009, - 560 s; Cəfərov, N. Azərbaycanşünaslığa giriş / N.Cəfərov. – Bakı: AzAtaM, - 2002, - 602 s; Əlibəyli, B. Durna çırağı / B.Əlibəyli. – Bakı: Çıraq, - 2006, - 200 s; Əlişanoğlu, T. XX əsr Azərbaycan nəsrinin poetikası / T.Əlişanoğlu. – Bakı: Elm, - 2006, - 311 s; Hüseynov, R. Savabın cavabı / R.Hüseynov. – Bakı: AMEA Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi, - 2004, - 77 s.

problem kimi ilk dəfə sistemli şəkildə qoyulduğu, mükəmməl nəzəri-metodoloji baza əsasında araşdırıldığı və müxtəlif yanaşma meodlarının tətbiqi ilə həll edildiyi ilk sistemlu monoqrafik tədqiqatdır.

Dissertasiyada problemə müxtəlif istiqamətlərdən yanaşmanın nəticələri olaraq bir sıra elmi yeniliklər əldə edilmişdir. Onları, əsasən, aşağıdakı kimi səciyyələndirmək olar:

− İlk dəfə olaraq bu tədqiqatda milli-mənəvi özünüdərk problemi Ə.İldırımoğlunun yaradıcılığı əsasında konseptuallaşdırılmış, özünüdərk və milli-mənəvi özünüdərk konseptləri arasında məna əlaqəsinin ədəbi-fəlsəfi, poetik-idraki xassələri aşkar edilmişdir;

− Dissertasiyada Ə.İldırımoğlu yaradıcılığında milli-mənəvi özünüdərk problemi ilk dəfə olaraq mətnlərarası (intertekstual) kontekstə gətirilmiş, "dünya ədəbiyyatı", "Azərbaycan ədəbiyyatı" və "Əli İldırımoğlunun nəsri" Azərbaycan bədii düşüncə sisteminin mövzuları olaraq vahid modeldə birləşdirilmiş, Ə.İldırımoğlu yaradıcılığında reallaşdırılmış milli-mənəvi özünüdərk ideyaları ilə dünya və Azərbaycan ədəbiyyatlarında mövcud olan milli-mənəvi özünüdərk konseptləri arasındakı bədii-semantik əlaqə xətləri müəyyənləşdirilərək üzə çıxarılımışdır. Bu istiqamətdə aparılmış təhlilin nəticələri təkcə Ə.İldırımoğlu yaradıcılığına deyil, ümumən Azərbaycan ədəbiyyatına münasibətdə yeni filoloji tezislər kimi hasilə gəlmişdir;

− Ə.İldırımoğlunun yaratdığı bədii nəsr fakturası poetik strukturu baxımından modelləşdirilmiş və milli-mənəvi özündərk konsepti nəsr məkanının müxtəlif struktur səviyyələrində dəyərləndirilərək analizi aparılmışdır;

− Aşkar edilmişdir ki, Ə.İldırımoğlu yaradıcılığında milli-mənəvi özünüdərk konsepti ilk növbədə bədii ideya səviyyəsində sabit və sürəkli xətdir. Bu xətt öz başlanğıcını sənətkarın ilk yaradıcılığından götürməklə daim yüksələn dinamikada davam etmiş, zamanla təkmilləşrək oturuşmuş, özünü yazıçının uzun onillikləri əhatə edən bədii düşüncə praktikasında sabit bədii üslub xətti kimi təsdiq etmişdir;

− İşdə Ə.İldırımoğlunun yaradıcılığının bütöv halında (total

bədii fakturada) vahid məzmun sahəsinə malik olduğu aşkar edilmişdir. Onun müxtəlif mövzuda yazdığı əsərlər gözügörünməz poetik element və formullarla bütöv bir məzmun sahəsi yaratmaq gücündədir. Təhlil aşkarlmışdır ki, kəmiyyət və keyfiyyət baxımından zəngin nümunələrlə təqdim olunan bu iri yaradıcılıq fakturasını vahid bədii məzmun halına gətirən əsas və aparıcı amil milli-mənəvi özünüdərk ideyalarıdır;

–Əldə olunmuş nəticələrə görə, Ə.İldırımoğlunun milli-mənəvi özünüdərk ideyaları onun yaratdığı prozaik obrazlarda öz təcəssümünü daha mükəmməl tapmışdır. Yazıçının bədii məzmun göstəricilərinə görə tam fərqli tipajlarda təqdim olunan obrazlarının, demək olar ki, hamısı milli-mənəvi özünüdərk konseptinin daşıyıcılarıdır. Yazıçının sənətkarlıq gücü və poetik istedadı onun düşüncələrinə daim hakim kəsilmiş milli-mənəvi özünüdərk ideyalarını yaratdığı zəngin obrazlar qalereyasında fərqli poetik tənasüb və bədii əyarlarda əks etdirə bilməsində ifadə olunur. Ə.İldırımoğlunun milli-mənəvi özünüdərk xəttində birləşən obrazlarının bir-birini təkrarlamayan orijinal xarakterlərə malik olması bu amillə – yazıçının obrazlaşdırma qabiliyyətinin məna diapazonunun genişliyi ilə müəyyənləşir;

–Tədqiqat aşkarlamışdır ki, Ə.İldırımoğlunun yaradıcılığında milli-mənəvi özünüdərk ideyalarının öz təcəssümünü tapdığı əsas poetik struktur səviyyəsi dil-üslub sahəsidir. Dilin poetik stixiyasının ən toxunulmaz elementlərini öz yaradıcılığında məharətlə işlədən Ə.İldırımoğlunun ortaya qoyduğu nəsrin əsas bədii-poetik göstəricilərindən biri zəngin bədii dil və üslubdur. Müəyyənləşdirilmişdir ki, yazıçının Azərbaycan dilinin tarixi-mədəni potensiyasına bağlılığı və məhəbbəti ona öz yarıdıcılığında milli-mənəvi özünüdərk ideyalarını dil-üslib səviyyəsində uğurla bədii reallığa çevrilməyə imkan vermişdir. Bu cəhətdən, dissertasiyada əldə olunmuş əsas postulatlardan biri budur ki, Ə.İldırımğlunun əsərlərinin dili milli-mənəvi özünüdərk ideyalarının təcəssümünə çevrilmiş fundamental milli bədii dil hadisəsidir;

–Dissertasiyada Ə.İldırımoğu yaradıcılığına xronoloji zaman müstəvisində yanaşılması yazıçının milli-mənəvi özünüdərk

ideyalarının epoxal inkişaf dinamikasını izləməyə və təhlil etməyə imkan vermişdir;

–Tədqiqatda ilk dəfə olaraq milli-mənəvi özünüdərk problemi Əli İldırımoğlunun müxtəlif mövzuda yazdığı əsərlərin günümüzlə səsləşən cəhətləri əsasında təhlil olunmuşdir;

–İşin əsas elmi yeniliklərindən biri də Əli İldırımoğlu yaradıcılığına müasirlik mövqeyindən yanaşılması, özünəməxsus ideya və konsepsiyaların irəli sürülməsidir. Original yanaşma üsulunu şərtləndirən cəhət onun haqqında yazılmış əvvəlki araşdırmalarda bu mövzuya indiyə qədər demək olar ki, toxunulmamasından dolayı problemə fərqli münasibət və məqbul metodoloji tədqiqat aspektindən yeniliklərə nail olunmasıdır;

–Dissertasiyada ilk dəfə olaraq yazıçının ədəbi-bədii və ictimai fəaliyyəti ilə bağlı indiyədək təqdiqata cəlb olunmamış cəhətlər üzə çıxarılmış, yaradıcılığında milli-mənəvi özünüdərk problemi müasirlik prizmasından təhlil olunmuşdur;

–Elmi işdə Əli İldırımoğlunun Azərbaycan ədəbiyyatının, ümumiyyətlə, mədəniyyətinin təbliğində və tanınmasında rolu şərtləndirilmiş, indiki dövrümüzə aid məsələlərlə bağlı qənaətləri, işğal olunmuş torpaqlarımızın geri qaytarılması yolunda barışmaz ədəbi-bədii mübarizəsi səciyyələndirilmişdir;

–Araşdırmada Əli İldırımoğlunun müasir Azərbaycan nəsrinin inkişafındakı xidmətləri üzə çıxarılmış, əsərlərindəki milli dəyərlərə bağlılığı, orijinal nəsr dili, bənzərsiz üslubu, özünəməxsusluğu, həyatiliyi, fəlsəfi aspektləri araşdırılmış, Azərbaycan ədəbiyyatına həsr etdiyi bədii, publisistik məqalələrə, habelə müsahibələrə geniş planda toxunulmuşdur.

**Tədqiqat işinin elmi-praktik əhəmiyyəti.** Dissertasiya işi həm də praktik əhəmiyyətə malikdir. Dissertasiyada əldə olunan nəticələr Əli İldırımoğlu yaradıcılıq irsinin və milli ədəbiyyatımızın müxtəlif problemlərinin, o cümlədən, milli-mental cəhətlərimizin, milli dəyərlərimizin aşkara çıxarılmasında mühüm rol oynadığını ümumiləşdirir.

Dissertasiya işi metodoloji aspekti, təhlil istiqamətləri, nəzəri yanaşma və araşdırma formulları baxımından sonrakı dövrün tədqiqatları üçün elmi-nəzəri əhəmiyyət daşıyır.

Tədqiqat işindən, həmçinin, Azərbaycanın müxtəlif universitetlərinin humanitar fakültələrində ümumi və xüsusi kursların tədrisində yardımçı vəsait kimi istifadə edilə bilər.

Dissertasiya işi yazıçılar və ədəbiyyatşünaslarla yanaşı, tarix və mədəniyyətşünaslığın müxtəlif problemlərini öyrənən tədqiqatçılar, etnoqraflar, kulturoloqlar üçün də əhəmiyyət daşıyır.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası Filologiya Problemləri üzrə Elmi Şurada qeydiyyatdan keçmiş, Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsində hazırlanaraq yerinə yetirilmişdir. Tədqiqatın nəticələri müəllifin Azərbaycan Respublikasında AAK-ın tövsiyə etdiyi jurnal və məcmuələrdə, xarici ölkələrdə nəşr edilən nüfuzlu jurnallarda dərc olunmuş elmi məqalələrdə, habelə onun elmi konfranslarda oxunmuş məruzə və çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, səkkiz paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş: 20075 işarə; I Fəsil: 111139 işarə (1.1 – 25321, 1.2 -34717, 1.3 -51101); II Fəsil: 96809 işarə (2.1 – 19367, 2.2 – 51286, 2.3 – 26156); III Fəsil: 85644 işarə (3.1- 35730, 3.2- 49914); Nəticə: 12684 işarə olmaqla 328871 şərti işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi araşdırılır, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, elmi-nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir, aprobasiyası və strukturu nəzərdən keçirilir.

Dissertasiyanın **"Milli-mənəvi özünüdərk probleminin ədəbi mahiyyəti və Əli İldırımoğlu yaradıcılığı"** adlı birinci fəsli üç paraqrafdan ibarətdir. **"Dünya ədəbiyyatında milli şüurun formalaşması və inkişafı yolları"** adlı birinci paraqrafı milli mənlik şüurunun formalaşmasının mühüm və metodoloji əhəmiyyət daşıyan məsələlərinin dünya ədəbiyyatı fonunda araşdırılmasına

həsr olunmuşdur. Bu paraqrafda milli düşüncə və özünüdərk, əsasən, cəmiyyətin formalaşmasında, onun tərəqqi yollarında ciddi amil kimi özünü göstərən norma və qaydalarda əks olunması göstərilir. Bu norma və qaydalar insan tərəfindən müxtəlif formalarda yaşadılaraq dolğunlaşdırılır. “Adət və ənənələrin əsas daşıyıcısı insanlardır. Hər bir xalq öz adət və ənənələrini nəsildən-nəslə verərək onları yaşadır və həm də şəraitin tələbinə uyğun olaraq yeni adət və ənənələr yaradır. Milli adət və ənənələr insan birliyinin millətdən əvvəlki formaları ilə millət arasında sanki bir vasitədir. Çünki hər bir xalqın yaşayış tərzi, istehsal və mədəni-məişət xüsusiyyətləri, davranış normaları, ictimai-siyasi, əxlaqi-estetik cəhətləri bir növ adət və ənənələr vasitəsi ilə gəlib bizə çatır. Millətdən olan hər bir yeni nəsil özündən əvvəlki nəslin milli xüsusiyyətlərini, həyat təcrübəsini mənimsəyir və bunu öz növbəsində gələcək nəslə verir”[1].

Burada xüsusi vurğulanır ki, ümumbəşəri dəyərlərdən fərqli olaraq milli-mənəvi keyfiyyətlər daha konkret, lokal və özünəməxsus formada olur. Qlobal inkişafa daim öz töhfələrini verən Azərbaycan xalqı adət-ənənələri, əxlaqi, mənəvi və kulturoloji özünəməxsusluğu ilə əhəmiyyətli beynəlxalq imic qazanmışdır. Multikultural tövsiyələrlə bəşəri dəyərləri unikal formada sintezləşdirən ölkəmiz, eyni zamanda qlobal yanaşmanın himayəçisi funksiyasını yerinə yetirir. Çağdaş Azərbaycan ədəbiyyatının ideya və məzmunu əsasında da bu mənəvi-əxlaqi, fəlsəfi-estetik tendensiya dayanır. Lakin burada ilkin şərt milli özgürlüyün mühafizə edilməsi, üstün milli dəyərlərin yad təsirlərindən qorunmasıdır.

Tarixi proses göstərir ki, öz dilini, qədim adətlərini, folklorunu, mifoloji yaddaşını qorumağı, yeni kulturoloji tələblərə uyğunlaşdırmağı bacarmayan millət məhvə məhkumdur. Bu, həm də millətin özünüqoruma instinktidir. Belə gerçək həqiqətləri öz həyat təcrübəsində sınaqdan çıxarmış xalqlar uzaq keçmişdən üzübəri ədəbiyyatını, tarixini, dilini, dinini, dövlətçiliyini qoruyub saxlamış, öz keçmişinə, milli həyat tərzinə söykənərək inkişaf

[1] Bayramov, Q. Mənəvi həyatda millilik və beynəlmiləlçilik / Q.Bayramov. – Bakı: Gənclik, - 1980, - 52 s,-s.44

etmişdir. Bu milli və xəlqi ruh, xüsusən ədəbiyyatda, bədii sənət əsərlərində qorunub saxlanılmışdır.

**“Azərbaycan bədii düşüncəsində milli-mənəvi özünüdərk konseptinin təzahür formaları”** adlı ikinci paraqrafda göstərilir ki, əsrlərin süzgəcindən keçib gəlmiş möhtəşəm ədəbi irsimiz xalqımızın milli qürurunu, xarakterini, qəhrəmanlığını, düşüncə tərzini, başqa xalqlara münasibətini realist boyalarla doğru-düzgün işıqlandırmışdır. Böyük mütəfəkkirlər – N.Gəncəvi, İ.Nəsimi, Ş.İ.Xətayi, M.Füzuli, M.F.Axundzadə, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, C.Cabbarlı, S.Vurğun, R.Rza, S.Rəhimov, M.Paşayev, M.İbrahimov, İ.Əfəndiyev və digər söz ustadları zaman-zaman öz əsərlərində xalqın düşüncə tərzini, coşqun ruhunu bədii predmetə çevirmiş, canlı obrazlarda əks etdirmişlər. Bu mənada tədqiqatçı Əliyar Orucov yazır: “Azərbaycan mütəfəkkirlərinin milli oyanışa və milli özünüdərkin formalaşmasına kömək edən sosial-siyasi, fəlsəfi fikirləri XX əsrin əvvəllərində millətin siyasi müstəqilliyi, azadlığı haqqında baxışların geniş yayılmasına səbəb olmuş, əslində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması üçün ideya zəmini hazırlamışdır. Onların bizə qoyduğu mənəvi irs bu gün də xalqımızın milli mənlik şüurunun, milli özünüdərkinin inkişafında böyük əhəmiyyətə malikdir”[1].

Ədəbiyyatımızın ayrı-ayrı nümunələri qədim tariximizin, milli inkişaf və tərəqqimizin öyrənilməsində ciddi mənbələrdir. Klassik poeziyamızdan müasir intellektual ədəbi nümunələrə qədər ədəbiyyatımızın başlıca estetik prinsipi milli yaddaşı qoruyub saxlamaq, millətin mənlik şüurunu, özünüdərkini formalaşdırmaq olmuşdur. İnsan və onun zəhməti, əməyi, faydalı işləri, sağlam, mükəmməl cəmiyyət uğrunda mübarizəsi, Xeyrin Şər üzərində, son anda qələbəsi klassik yazılı və şifahi ədəbiyyatın əsas bədii təyinatıdır. Ədəbiyyat insanı sevmiş, onun özünüdərki, kamilləşməsi, əqli və intellektual cəhətdən inkişaf etməsi, ruhən saflaşması yolunda daim mücadilə etmişdir. Nizami Gəncəvi kamil insana çox böyük dəyər verir: “Zamanın ilk mənzili yer, dünyanın

---

[1] Orucov, Ə. Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu – XX əsrin əvvəlləri / Ə. Orucov- Bakı: Avropa, -2012,- 251s. -s.7.

son nəsli də insandır". Bu insan "özünü tanıdıqda Allahı da tanıyır". İnsan sözün – mənəvi və psixoloji mənası ilə bir insan – "İki aləmi özündə təmsil edən bir nurdur.

Bu, Şərq sufilərinin "insani kamil" dedikləri kamil insandır. Bu "kamil insan" müasir alman məktəbinin "üvermenseh" dediyi üstün insana bənzəyir"[1].

Konkret mənada, azərbaycanlı modelinin, klassik milli azərbaycanlı tipinin formalaşması və ədəbi qəhrəman kimi təzahürünün ilkin ştrixlərini isə biz milli dramaturgiya, realilist bədii nəsr və professional ədəbi tənqidimizin banisi M. F. Axundzadənin yaradıcılığında və ictimai fəaliyyətində izləyirik. O, klassik ədəbiyyatımızın obyekti olan mücərrəd insanı konkret azərbaycanlı tipi, özündə milli mentaliteti, milli-əxlaqi dəyərləri, milli yaddaşı yaşadan obrazlarla əvəz etdi. Sonrakı illərdə milli ziyalılarımız, demokratik düşüncəli yazarlarımız bu ədəbi mövzunu davam etdirmiş, azərbaycanlı tipi ədəbiyyatın baş qəhrəmanına çevrilmişdir. Bədii ədəbiyyatın qəhrəmanları hacı qaralar, hətəmxan ağalar, dərviş məstəli şahlar, novruzəlilər, usta zeynallar, xudayar bəylər, mirzə səfərlər və başqa tipik azərbaycanlılar, dövrün, zamanın ümumi cəhətlərini yaşadan milli qəhrəmanlar oldu.

**"Əli İldırımoğlu yaradıcılığında insan konsepsiyası və özünüdərk probleminin ümumnəzəri konteksti"** adlı paraqrafda insanın mənəvi cəhətdən formalaşması və yüksəlişində öz xalqının zəngin dəyərlərinin təsirinin əksi müstəsna yer tutur. Cəmiyyətin inkişaf göstəricilərindən olan milli mənəviyyat öz mahiyyətinə görə xalqa, milli topluma daha doğma olur, onun əhval-ruhiyyəsini yaşadır. Bu da əsas etibarilə, ədalət və xeyir anlayışlarının məzmununda ifadə olunur. İctimai rəyin gücü ilə qorunan bu fenomenal sosial normalar insanın daxili dünyasını əks etdirən mənəvi aləmlə qırılmaz tellərlə bağlı olur. Qanunlardan fərqli olaraq mənəvi-əxlaqi, estetik normalar, o cümlədən insanın özünüdərki onun davranış və hərəkətlərinin təbii koordinatları ilə ölçülür.

Fərdlər müxtəlif seçimlərdə daha çox azadlığa malik olmalıdır. Azadlıqla milli-mənəvi özünüdərkin vəhdəti fonunda

---

[1] Rəsulzadə, M.Ə. Azərbaycan şairi Nizami. Türkcədən çevirəni: professor Rüstəm Əliyev / M.Ə.Rəsulzadə. – Bakı: Azərnəşr, - 1991, - 232 s. –s.201

insanın elinə, obasına bağlılığı, cəmiyyət qarşısında borcu, bir fərd kimi səadət və xoşbəxtlik uğrunda apardığı mübarizəsi bədii ədəbiyyatda daha dolğun aşkara çıxır.

Bu bəşəri missiyanı həyata keçirən yazıçılardan biri də Ə. İldırımoğludur. O, öz sözü, öz nəfəsi, özünəməxsus mövzu dairəsi, yazı texnikası, orijinal dili, üslubu, spesifik obrazlar və surətlər qalereyası olan sənətkardır. O, ənənəvi ədəbi yaradıcılıq normalarına nə qədər sadiq olsa da belə, yenə də öz dünyasında, mizan-tərəzisində, ahəng və ritmindədir, özünəməxsus ədəbiyyatını yaratmaqdadır. Məhz bu xüsusi bədii ritm və həyat hadisələrinə özəl yanaşma xüsusiyyəti ona ədəbiyyat içində ədəbiyyat yaratmaqda yardımçı olmuşdur.

Əli İldırımoğlunun yaratdığı qəhrəmanlar vətənə, torpağa bağlı olan layiqli və namuslu həmvətənlərimizdir. Bu qəhrəmanlar xalqımızın min illərdən üzübəri formalaşmış yaddaşını, yaşam tərzini, əxlaqını, mənəvi dəyərlərini ləyaqətlə yaşadıb çağdaş dövrümüzə çatdırıblar. Onlar kimdir? Namuslu əməyini ən uca bayrağa çevirən, dəhnə bağlayan, zəmi biçən, ot çalan, toxum səpən, bununla bərabər müdrikliyi, ağayanalığı və alicənablığı ilə nümunə olan İldırım kişi, mərd, mübariz, sözübütöv, gözü-könlü tox Nazim İlham, Höcət Cahangir, Sücəddin, Nəcəf, Mürşüd kişi, Qaçaq Mürsəl, Əmrah, "Kişi Tavat", Cəbrayıl, Qaçaq Qabil, Mövlanverdi, İbadulla və b. Bu obrazlar – vətənin layiqli övladları xalqı təmsil edir, öz şəxsiyyətində, daxili saflığında və təmizliyində ötən nəsillərin mərdliyini, mübarizliyinii, mənəvi ucalığını qoruyub saxlayır. Bu qəhrəmanlar xalqın ən nəcib cəhətlərini özündə yaşadan subyektivləşmiş xalqdır, Vətəndir. Subyektivləşmiş fərdlər həm də ümumi toplumun xüsusiyyətlərini yaşadan ictimai faktorlardır. "Subyektivləşmə, insanlaşma ilk növbədə, insan psixologiyasının, mənəviyyatının və xarakterinin yaranmasını tələb edir. Məlumdur ki, yaşamaq üçün mənəvi əsaslar, təhrikedici xüsusiyyətlər mühüm əhəmiyyətə malikdir. Çünki yaşamaq üçün fərdə lazım olan fundamental subyektivləşmə prinsipləri, yaşamağa əsaslandıran xüsusiyyətlər məhz insan psixologiyası daxilində olan

mənəviyyatda cəmləşir”[1]. Ə.İldırımoğlu cilalanmış, saflaşmış bu mənəviyyatı ortaya qoyur, qəhrəmanlarını vicdan qanunları ilə sınağa çəkir.

Dissertasiyanın **“Əli İldırımoğlu nəsrində həyat həqiqətlərinin bədii və poetik struktur səviyyələri”** adlı ikinci fəsli üç paraqrafdan ibarətdir. **“Əli İldırımoğlu yaradıcılığında milli-mənəvi özünüdərkin ideya və məzmunu**” adlı birinci paraqrafda müasir dövrdə insanların öz keçmişinə, soy kökünə bağlılığı, bu kontekstdə müasir yaşam tərzini sahmanlaması dəqiq və həssas bir araşdırma zərurəti kimi ortaya qoyulur. Hazırda cəmiyyətdə baş verən əsaslı dəyişikliklər genişlənməkdə olan demokratiya, informasiya bolluğu, vətəndaş fəallığının yüksəlməsi insan qəlbinin, əxlaqının, mənəviyyatının, onun estetik görüşlərinin yeni mahiyyətini üzə çıxarır, dəyişməkdə və inkişafda olan xarakterini şərtləndirir. Bu isə insanlarda yeni təfəkkür, düşüncə tərzi formalaşdırır, əxlaq və mənəviyyatın saflaşmasına, zənginləşməsinə, durulub aydınlaşmasına gətirib çıxarır. İnsan bir varlıq kimi mükəmməlləşir, ictimai həyatda fəallığı artır, mənəvi-estetik imkanları genişlənir, həyatla qarşılıqlı əlaqələri daha da möhkəmlənir. Belədə insan öz kökünə, milli yaddaşına daha intensiv ekuskurs edə bilir, bu kontekstdə özünü, öz “mən”ini sübuta yetirir, müasir dünyanın mürəkkəb yaşantılarının açarını da öz dədə-baba mənəviyyatında və əxlaqında tapır.

Milli özünüdərk prinsipi insanın daxili yüksəlişinin nəticəsi kimi meydana çıxır. İnsan tərbiyəsində müstəsna rol oynayan cəhətlər bunun əsasını təşkil edir. Onların sırasında aşağıdakılar xüsusi vurğulanmalıdır: möhkəm iradə, geniş dünyagörüşü, yüksək mədəniyyət və öz xalqının ınkişaf yollarına bələdlik… Cəmiyyətdə bu üstün cəhətlərin formalaşması baxımından təhsil sisteminin təkmilləşdirilməsi, milli ədəbiyyatın təbliği, mətbuatın və digər ictimai təsir formalarının müasirləşdirilməsi təxirəsalınmaz məsələlər sırasına keçir. Bu məsələlər Əli İldırımoğlunun əsərlərində çoxplanlı, şaxəli və rəngarəng şəkildə əks etdirilmişdir. “Qarlı gecələr” romanı, ayrıca götürdükdə, sadaladığımız

---

[1] Dədəyev, Ş. Psixika / Ş.Dədəyev. – Bakı: Qanun, - 2007, - 456 s. - s.240

keyfiyyətlərdən birinə - təhsil probleminə, insan tərbiyəsinə, onun əxlaqi-mənəvi tərəqqisinə həsr olunmuşdur. Mövzunun konkretliyinə baxmayaraq, romanda, sadaladığımız mənəviyyat və əxlaq məsələlərinin hamısına kompleks yanaşılır. Professor N.Şəmsizadə roman haqqında öz qeydlərində bunu xüsusi vurğulayır:“Müəllim haqqında yazmaq hünərdir. Çünki müəllim müqəddəsdir. Dünya öz sahmanını müəllimə baxıb düzəltməlidir. Müəllim şəxsiyyətinin gənc ruha olan təsiri elə bir tərbiyə vasitəsidir ki, onu heç bir dəftər, qələm, skamya əvəz edə bilməz. Heç bir şah müəllim olmayıb. Amma bütün şahların müəllimi olub. Haçansa o, müəllimi qarşısında tər töküb, baş əyib. Müəlliminə qiymət qoymayan dövlətin və cəmiyyətin axırı yoxdur. Əli İldırımoğlunun “Qarlı gecələr”i müəllimə belə bir ümumxalq ehtiramı təlqin edən bədii əsərdir”[1].

Yazıçının fikrincə insanın mənəvi zənginləşməsində, təkmilləşməsində özünüdərkin rolu əvəzsizdir. O, fərdin, bütövlükdə cəmiyyətin fəaliyyət və tərəqqisini bu baxımdan mənalandırarkən, insanın mənəvi-sosial dəyərlərini, əxlaqi gözəlliyini önə çəkir. Onun əsərlərində cəmiyyətdəki əxlaq normaları – insanpərvərlik, vətən eşqi, fəal vətəndaş mövqeyi, xalqına bağlılıq insanın mənəvi zənginlik səviyyəsinin göstəricisi özünüdərklə eyniləşdirilir.

**“Yazıçının nəsrində milli şüur və düşüncənin formalaşmasının əsas xüsusiyyətləri”** adlı ikinci paraqrafda nəzəri cəhətdən irəli sürülür ki, cəmiyyətdə hadisələr durulduqca, mənəvi dəyərlər keyfiyyətcə yeniləşdikcə, insanın məqsədə doğru istiqamətlənməsi də sürətlənir, onun real fəaliyyətdə həyata keçirmək istədiyi arzular intensivləşir. Bu, təsadüfi yox, obyektiv qanunauyğunluq kimi dəyərləndirilir. Keçmişinə hörmət, etnosun əbədi əxlaq və mənəviyyat qanunlarına sədaqət, bu kontekstdə özünüdərk insan yüksəlişində çox qüdrətli stimul sayılır. Burada insanın fərdi və ictimai mənafeləri üzvi surətdə birləşir.

Aparılan təhlillər sübut edir ki, insanın özünüdərki praktiki biliklərlə, əxlaqi dəyərlərlə, estetik duyğularla müvazi inkişafdadır.

---
[1] İldırımoğlu, Ə. Qarlı gecələr / Ə.İldırımoğlu. – Bakı: Nurlan, - 2007, - 376 s. - s.9-10.

Bu yaşantılar humanizm, azadlıq və sosial ədalət uğrunda mübarizələrdə cilalanıb bərkiyir. Butun bunlar milli mənəviyyatla insanın həyati münasibətlərindəki vəhdətini daha da möhkəmləndirir. Ə.İldırımoğlunun nəsrində bu cəhətlər kompleks şəkildə, vəhdətdə bir-birini tamamlayaraq üzə çıxır. Azadlıq, ədalət, humanizm və s... Bu duyğu və düşüncələr yazıçı üçün həyatı vacib mühüm prioritetlərdir.

Humanizm problemi, həmçinin onun milli-mənəvi özünüdərklə münasibətləri müxtəlif yazıçılar tərəfindən həmişə ön plana çıxarılıb. Əli İldırımoğlu öz əsərlərində bu nəsnəyə özünəxas şəkildə yanaşır, onun mənasını, məntiqini aşkara çıxarmağı başlıca məqsədlərdən biri kimi hədəfləyir. Bu da onun ədəbi fəaliyyətinin nəticəsinə, yaratdığı obrazların hər birinin həyat tərzinə kifayət qədər təsir göstərir və özgürlük verir. Ümumilikdə, yazıçı əsərlərində obrazlara humanizmlə, ümumi mənafe – mənəvi özünüdərk prinsipiylə yanaşır. Onun əsərlərində sərgilənən mənəvi dəyərlərlə humanizmin vəhdəti belə bir ümumi nəticəyə gətirib çıxarır ki, onların hər ikisinin son məqsədi şəxsiyyəti inkişaf etdirmək, Azərbaycan insanının qabiliyyətini və potensialını açmaq, ona özünü təsdiq etmək imkanı yaratmaqdır. Yazıçı ədəbi yaradıcılıqla bu məqsədə nail olmaq üçün müəyyən vasitələr, yollar axtarır, cəmiyyətin inkişafında insan və təbiət münasibətlərində olan ümumi vacib cəhətləri taparaq həyatın davamlı məntiqi, yaşam fəlsəfəsi kimi təqdim edir.

**“Ədibin əsərlərində sosial-mənəvi problemlərin başlıca prinsipləri”** adlı üçüncü paraqrafda Əli İldırımoğlu realizminin başlıca prinsipi xalqa, torpağa, vətənə bağlılıq, düşmənə qarşı barışmaz vətəndaşlıq mövqeyi və ən ümdəsi isə erməni əsirliyində inləyən torpaqlarımız, yurd yerlərimiz uğrunda sonadək mübarizə kimi xarakterizə olunur. Milli Məclisin üzvü Tahir Rzayev “Qanla suvarılan tütək” məqaləsində yazır: “Yazıçı Əli İldırımoğlunun ”Daş yağan gün” romanını oxuyanda bir daha Azərbaycan yazıçısının yüksək mənəvi keyfiyyətlərinin şahidi oldum, yazıçı – vətəndaş mövqeyinin aliliyinə, sənətkarın bəşəri hisslərə arxalandığına inandım. Əli müəllimi istedadlı bir jurnalist-yazıçı kimi çoxdan tanıyıb, yaradıcılığı ilə tanış olsam da, bu romanı

oxuyandan sonra Əli İldırımoğlu mənim üçün yenidən kəşf olundu, onun vətən yanğısına, torpaq qeyrətinə, vətəndaş mövqeyinə, ağsaqqal baxışına, xalq sevgisinə heyran qaldım”[1].

İnsanın yüksəlişini təmin edən əsas məsələlərdən biri kimi mənəviyyat məsələsi və özünüdərkin müasir sosial müstəvidə araşdırılması ədəbi aləmə çox mühüm töhfə verir. Bu kontekstdən yanaşdıqda yaşadığımız dövrün reallığı ilə şərtlənən əsas yenilikləri və onların xüsusiyyətlərini daha dəqiq aşkara çıxara bilirik. Vətəndaşın hərtərəfli inkişafı cəmiyyətin sosial mənada geniş özünüifadəsi deməkdir. Bu məqam ədibin yaradıcılığında reallaşan bitkin həyat hadisələrinin və kamil qəhrəmanların məzmununda müəyyən özünəməxsusluqlarla izlənilir.

Müstəqillik dövründə Əli İldırımoğlu yaradıcılığında ictimai dəyişikliklərin ab-havasının insanın mənəvi inkişafına təsiri ardıcıl surətdə ifadə olunub. Bunlar isə ədəbi sferada millətin özünə xas dəyərlərinin prioritet təşkil etməsi, özünüdərkin güclənməsi, sürətlənməsi və yeni çalarlar alması ilə bağlıdır. Bu dövrdə onun vətən və torpaq təəssübkeşliyi məlum ictimai-siyasi proseslərdən dolayı daha böyük məna kəsb etməyə başladı.

İnsan fərd olaraq daha azaddır, ancaq o, yaşadığı cəmiyyətin səviyyəsinə uyğun azad həyat sürmək üçün mütləq ümumi sosial mexanizmın ıçinə daxil olmalıdır. Şübhəsiz, insanın cəmiyyətdənkənar, ölçü-biçisiz, hüdudsuz azadlığı mümkün deyıldir. Bütün bunlar Əli İldırımoğlu nəsrindən də yan keçmir. Əli İldırımoğlu müstəqillik dövrümüzün ilk illərindəki ölçü-biçisiz, sərhədsiz və hüdudsuz demokratıyaya, başqa sözlə xaos və başıpozuqluğa qarşı çıxır, ona sanki, cihad elan edir. Bu hadisələr müəllif qələmində çox ciddi satirik mövqedən sərt sarkazmla əks etdirilir.

Dissertasiya işinin **“Əli İldırımoğlu nəsrində konseptual məsələlərin həlli yolları”** adlı üçüncü fəsli iki paraqrafdan ibarətdir. **“Əli İldırımoğlu nəsrinin dili və üslubu”** adlı birinci paraqrafında göstərilir ki, cəmiyyətin inkişafını müəyyən edən cəhətlər sırasında mental keyfyyətlər və ənənələrlə yanaşı, xalqların

---

[1] http://qisadersmuhazireleri.

dəyişməyən mənəvi irsi, yaradıcılıq potensialı, mədəni-kulturoloji dəyərləri, özünüdərk və özünütəsdiq amili xüsusi yer tutur. Bunun ən yüksək forması olaraq mənəvi özünüdərk kompleks halda xalqın düşüncə sisteminin, həmçinin dünyagörüşünün birləşdirici formuluna çevrilir. Azərbaycan xalqı əsrlər boyunca formalaşmış zəngin və dərin təfəkkürü, elmi-mədəni, kulturoloji fəaliyyəti ilə həm regionda, həm də geniş götürdükdə dünyada yaxşı tanınmış, öz varlığını zaman-zaman sübut etmiş, daim özünəməxsus üstün keyfiyyətləri ilə fərqlənmişdir. Bu dəyərlər və mədəni təcrübələr isə zaman-zaman məhz dillə, şifahi, yazılı ədəbiyyat və sənətin digər növlərilə ötürülmüşdür. Odur ki, dil faktoru mədəni təzahür kimi bütün dövrlərdə öz aktuallığını büruzə vermişdir.

Həm bədii yaradıcılıqda, həm fəlsəfi-estetik tədqiqatlarda, elmi fəaliyyət sahəsində dil və onun törəmə funksiyalarına metodoloji baxımdan geniş şəkildə müraciət olunmuşdur.Söz sənətinin, ədəbiyyatın inkişafının istiqamətləndirilməsi baxımından dil faktoru xüsusi mövqeyə malikdir.

Yazıçının ədəbi dili Azərbaycan dili içərisində avtonom hüquqlu, özünəxas statuslu bir dil sayıla bilər. Böyük ədəbiyyat məkanında onun özünəməxsusluğunun daha bir təsdiqi  əsl xalq dilində yazmasıdır. Onun ədəbi obrazları, məhz bu dillə fərqli, seçilən qəhrəmanlardır. Yazıçının ədəbi dilinin xüsusiyyətlərindən, leksik tərkibindən, frazeoloji vahidlərindən, dialekt və şivələrə ədəbi dil ahəngi gətirməsindən, onları ədəbi dil normalarına uyğunlaşdırmasından  geniş bəhs etmək olar. Müəllifin zəngin dili, çevik, işlək və professional üslubu, şirin təhkiyəsi barədə Akademik Nizami Cəfərov "Köhnə kişinin dili" adlı məqaləsində yazır: "...Xalq dilindən gələn bu mükəmməllik müəllif tərəfindən o qədər təbii mənimsənilmiş və əsası, o qədər təbii təqdim olunmuşdur ki, bütövlükdə mətnin həndəsi sxemini çəkmək mümkündür.

Peşəkar dilçi olaraq, mən görürəm ki, mətndə durğu işarələri çox hallarda düzgün qoyulmamışdır. Bununla belə, etiraf edim ki, xalq (epos!) dilinin özünəməxsus norma demokratizmini buxovlaya bilməyən müasir punktuasiya tələbləri baxımından mətni redaktə etməyi, Molla Nəsrəddin demiş, heç mən də bacarmadım. Çünki bu mətn mənşəyi etibarilə yazılı təfəkkürün hadisəsi deyil.

...Etnoqrafik-əxlaqi kanonlarla yanaşı müasir ictimai həyatı, təbii (və süni) prosesləri bir publisist istedadı ilə dərindən bilən Əli İldırımoğlunun dil həssaslığı nə qədər ənənəvidirsə, o qədər müasirdir. Və nə qədər müasirdirsə, o qədər ənənəvidir”[1].

**“Nasirin yaradıcılığının Azərbaycan ədəbiyyatının inkişafında yeri və rolu”** adlı son paraqrafda yazıçının müasir ədəbiyyatımızın inkişafında yeri və rolu xarakterizə olunur. Göstərilir ki, Əli İldırımoğlu bədii yaradıcılığında, düşüncə və daxili dünyasında qurduğu spesifik konkret xarakterli fəaliyyət proqramına əsaslanır. Bu proqramda milli maraqların reallaşdırılması, mədəni prioritetlərin istiqamətləndirilməsi, milli birliyin və özünüdərkin inkişafına kömək edən formaların tarixi ardıcıllıq baxımından müəyyənləşdirilməsi başlıca yer tutur. O, əsərlərinin baş və müsbət qəhrəmanlarına ümummilli səciyyə verir, obrazların hər birinə müəyyən davranış və fəaliyyət trayektoriyası cızır, milli əxlaq, milli tərbiyə mövqeyindən çıxış edərək nəyin alqışa layiq, nəyin qəbuledilməz olduğunu parlaq bədii dillə, geniş həyati lövhələrlə nəzərə çarpdırır. Həm də yazıçı, qələm əhli, ən nəhayət, insan olaraq ədib öz fəaliyyətində, yaradıcılığında bu postulatlara nizam-intizamla riayət edir. Ədibin cəmiyyətə, sənətə, ədəbi sferaya, mədəni həyatımıza təsirini bu rakursdan da çözələmək lazımdır.

Əli müəllimin yaradıcılığında cəmiyyətin tərəqqisi, şəxsiyyətin formalaşması məzmununa görə geniş planda qoyulur. O, ilk öncə xalqın mənəvi-əxlaqi təkamülünü, iqtisadi-sosial tərəqqisini, azadlıq duyğularını, müstəqillik və siyasi bağımsızlıq uğrunda mübarizəsini önə çəkir. Burada milli ruhun oyanışı, millətin öz həqiqi milli varlığını dərk etməsi, milli şüurun formalaşması başlıca məqsəddir. O, deyir: “Hər bir yazıçı ədəbiyyata tarixin, bəşəri dəyərlərin meyarıyla yanaşmalıdır. Sadəcə, bu günlə nəfəs alan yazıçının ömrü də elə bu gün qədər qısa olar. Heç bir siyasi quruluş əbədi deyil. Onun üçün də qələm sahibi dövrün hakimlərindən, siyasi quruluşdan, onun keçid ideologiyasından asılı olmamalıdır. Öz milli mentalitetinə, dininə,

---

[1] İldırımoğlu, Ə. Ağ günlərin qara daşı / Ə.İldırımoğlu. – Bakı: Elm və təhsil, - 2015, - 538 s.- s.454-455.

dilinə, soykökünə, vətəninə, millətinə, üzərində qərar tutduğu torpağa söykənməlidir”[1].

Yazıçı öz əsərlərində daim yüksək ideya və fikirlərə sadiq qalmış, ədəbiyyatımızın yad təsirlərdən qorunması yolunda əsl mücadilə aparmışdır. O, Azərbaycan torpağının, vətənin əbədi tərənnümçüsü kimi yaşamış, milli azərbaycanlı tipini bütün dünya sivilizasiyasına nümunə göstərə bilən bir varlıq kimi təqdim etmişdir. Bəşəriyyətin gələcəyinə həmişə ümidlə baxan kamil şəxsiyyət tipini uca tutan müəllif öz qəhrəmanlarının timsalında bunun parlaq nümunələrini yaratmışdır. “Bəşər sivilizasiyasının müasir mərhələsində, dünyanın rənginin – ahənginin dəyişdiyi bir vaxtda Əli İldırımoğlu XXl əsrin topu, tüfəngi, raketi, kompüteri, zədələnmiş mənəviyyatı, bayağılaşmış əxlaqı qarşısına əli kərəntili rəncbər atasını çıxarır. Bu, keçmişlə bu günün qarşılaşmasından daha çox əxlaq və mənəviyyat savaşıdır. Belə bir qeyri-bərabər döyüşdə Əli İldırımoğlunun əli kərəntili rəncbər atası qalib gəlir. Əslində, bu doğma xalqımızın əxlaqi keyfiyyətlərinin, haqqın, ədalətin, halallığın, nəcibliyin, mənəviyyatın qələbəsidir, tarix boyu uzun, sadə və mətin bir yol keçmiş əsl insanlığın təntənəsidir”[2].

Dissertasiyanın **“Nəticə”** hissəsində tədqiqata yekun vurulmuş və alınan nəticələr ümumiləşdirilmişdir.

Göstərilmişdir ki, milli-mənəvi özünüdərk ideyaları Ə.İlırımoğlu yaradıcılığnın bütün poetik struktur səviyyələrini (məzmun, forma, süjet, motiv, dil, üslub və s.) əhatə edən bədii-estetik xətdir. Bu xətt qaynaqları etibarilə sənətkarın əqidə aləminə, dünyanı idraki və estetik qavrama duyumuna bağlanır. Xalqın içindən çıxmış və xalq ruhunu öz varlığının milli mahiyyəti kimi dərk etmiş Ə.İldırımoğlu bütün həyatı və yaradıcı ömründə xalqdan, millətdən, onun milli varlığı və maraqlarından bir an da olsun kənarda qalmamışdır. Bütün vətəndaş məfkurəsi və ruhu milli dəyərlərlə yoğrulmuş Ə.İldırımoğlu zaman baxımından sovet epoxası və müstəqillik dövrünə təsadüf edən yaradıcılığında daim

---

[1] İldırımoğlu, Ə. Əmrahsız qalan dağlar / Ə.İldırımoğlu. – Bakı: Nurlan, - 2007, - 303s. - s. 273

[2] İldırımoğlu, Ə. Əmrahsız qalan dağlar / Ə.İldırımoğlu. – Bakı: Nurlan, - 2007, - 303s. - s.21

bu və ya digər formalarda milli-mənəvi özünüdərk ideyalarını reallaşdırmağa çalışmışdır. Milliliyin həqiqi təzahürlərinə qarşı amansız olan sovet ədəbiyyatının ideoloji buxovları yazıçını milli-mənəvi özünüdərk ideyalarının qoyuluşundan ötrü maraqlı məzmun və forma axtarışlarına sövq etmişdir. Nəticədə Ə.İldırımoğlu imzası Azərbaycan bədii fikir məkanında milli dəyərlərin sabit tərənnümçüsünə çevrilmişdir.

Ə.İldırımoğlunun reallaşdırdığı əsərlərin poetik struktur kontekstində yanaşma göstərir ki, milli-mənəvi özünüdərk konsepti özünü sənətkarın əsərlərinin poetik struktur modelində, əsasən, bədii ideya, bədii məzmun, bədii obrazlar, bədii motivlər səviyyələrində təzahür etdirmişdir.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı məqalə və konfrans materialları çap olunmuşdur:**


1. Əliyev, L. Əli İldırımoğlu nəsrinin milli-mənəvi dəyərlər, milli özünüdərk və sosialogiya kontekstində dili və üslubu / L.Əliyev. - “Filologiya məsələləri” - Bakı: - “Elm və təhsil”, - 2016. - № 11, -s.406-411.
2. Əliyev, L. Dünya ədəbiyyatında milli-mənəvi dəyərlər, milli özünüdərk və sosial-psixologiyanın nəzəri əsasları / L.Əliyev. - “Dil və Ədəbiyyat” Beynəlxalq elmi-nəzəri jurnal - Bakı: 2017. - № 1 (101), -s.197-200.
3. Əliyev, L. Əli İldırımoğlu yaradıcılığında milli-mənəvi dəyərlər, milli özünüdərk və sosial psixologiya məsələləri / L.Əliyev. - “Filologiya məsələləri”, - Bakı: - “Elm və təhsil”,- 2017. - № 3, - s.385-394.
4. Алиев, Л. Проблема национально-духовного самопознания в Азербайджанской литературе / Л. Алиев. - Научное издание «Язык и культура», - Киев:2017. - Киевский Национальный Университет имени Тараса Шевценко. - Выпуска 20, - том IV (189), - с. 198-204.
5. Əliyev, L. Əli İldırımoğlu yaradıcılığında azadlıq motivləri // L.Əliyev. - Azərbaycan Respublikası Təhsil Nazirliyi, - Bakı Slavyan Universiteti. - Ümummilli lider Heydər Əliyevin

anadan olmasının 95-ci ildönümünə həsr olunmuş Azərbaycançılığın aktual problemləri IX beynəlxalq elmi konfransın materialları, - Bakı: 2018, - 3-4 may. - s.154-156.

6. Əliyev, L. Sosial ədalət uğrunda mübarizə Əli İldırımoğlu yaradıcılığının estetik kredosu kimi / L.Əliyev. - "Dil və ədəbiyyat" Beynəlxalq elmi-nəzəri jurnal. - Bakı:2018. - № 3 (107), -s.285-288.
7. Əliyev, L. Humanizm Əli İldırımoğlu yaradıcılığında milli-mənəvi özünüdərkin əsas xüsusiyyətlərindən biri kimi / L.Əliyev. - "Filologiya məsələləri", - Bakı: - "Elm və təhsil", - 2018. - №10, - s.264-269.
8. Əliyev, L. Əli İldırımoğlu yaradıcılığında məhəbbət, qadına münasibət və ailə modeli / L.Əliyev. - "Filologiya məsələləri", - Bakı: 2018. - "Elm və təhsil", - № 11, - s.257-263.
9. Aliyev, L. The problem of hera and personality in Ali Ildirimoglu s Works // L. Aliyev. - XIX international scientific and Praktikal Conference Sosial and Ekonomik Aspekts of Edukation in modern Sosiety. - Polşa. - Varşava. - 2019. - 25-II. - s.42-46.
10. Aliyev, L. Konsept of national-moral self-consciousness in exampless of artistic images in the sontext of creative activitu of Ali Ildirimoghlu / L. Aliyev. - Науковий вістник міжнародного гиманитерного университету. - Украіна: 2019. - Збірник Науковіх раць.- Серія: філологиия. Випуск 43, - том 2. - Відавничий qim «Гельветика», - s.4-9.
11. Əliyev, L. Əli İldırımoğlu yaradıcılığında Qarabağ problemi // L.Əliyev. - Qərbi Kaspi Universiteti. Ədəbiyyatda Qarabağ Mövzusu adlı Respublika elmi konfransı. – Bakı: 2021-ci il. - 24 aprel, - s.79-83.

Dissertasiya işinin müdafiəsi 28 iyun 2022-ci il tarixində saat 15⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 - Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143. Bakı şəhəri, Hüseyn Cavid prospekti 117, Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Akademiya şəhərciyi, IV mərtəbə, Elektron Akt zalı

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 may 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 26.05.2022

Kağızın formatı: A5

Həcm: 39856

Tiraj: 100